Adımız məfkurəmizdir
№41 18 - 24 noyabr 2025-ci il
Türküstan
www.turkustan.az

Aida Eyvazlı Göytürk,
İpək Yolu Mədəni və
Tarixi Araşdırmalar İB-nin sədri,
AzTV-nin İnformasiya Proqramları redaksiyasının
böyük redaktoru



# Daşkənddə Zəngi Ata Mavzoleyi, Sahibgiran darvazası...

## Zəngi tayfaları

## Səfər qeydləri

(əvvəli ötən sayımızda)

***Zəngi Ata ziyarətgahında Zəngi babanın məzarını da lentə alırıq. Tanrıya dualarımızı edib, xoş niyyətlə bu müqəddəs ziyarətgaha bir də gəlməyi arzulayırıq.***

***Sentyabrın 1-i Özbəkistanın Müstəqillik günüdür. İki gün əvvəl, Daşkənddə dövlət səviyyəsində, açıq səma altında keçirilən, Özbəkistan Prezidenti Şavkat Mirzyoyevin də iştirak etdiyi bayram tədbirində ölkənin tanınmış müğənnisi Yulduz Turdiyeva Qarabağ haqqında mahnı oxuyubmuş. Bayram konsertində iştirak edən yerli müğənnilər də öz Müstəqillik bayramlarında Türk Birliyinə daxil olan ölkələrin mahnılarını ifa ediblər. Bu mənzərənin özü Türk Birliyinə qarşı çıxmaq istəyənlərə Şavkat Mirzyoyevin mədəniyyət dilində ötürülən mesajıdır desəm yanılmaram.***

Axşamdan şair Şuhrat Arif bizə belə məsləhət görmüşdü ki, əgər Səmərqəndə gedərkən, Cizak yolunun üstündə yerləşən Əmir Teymur darvazalarını çəkəsi olsaq, o zaman yol maşını ilə getmək daha məqsədəuyğun olacaq. Sizə deyim ki, hələ 15 il bundan əvvəl "Özbəkistan Dəmir Yolları"nda sürət qatarı ilə Daşkənddən Səmərqəndə 2 saat yarıma çatmaq kimi gözəl bir fürsət var idi. Bu gün də həmin "Afrasiyob" adlı qatar Əmir Teymur darvazalarından keçir.



Sahibgiran Əmir Teymurun darvazalarını çəkmək üçün səhər tezdən avtovağzala gəlib, avtomobil ilə yola düşürük. Təxminən 55-60 yaşlarında olan sürücü çox təmkinli və rahat bir adama bənzəyir. Ondan xahiş edirəm ki, 4-cü sərnişini götürməsin ki, maşının salonunda rahat otura bilim. Ön oturacaqda əyləşən operatorumuz Fariz Şıxəlizadə hərdən "OZMO" kameranı işə salıb, öz işini görür. Bəxtim onda gətirib ki, Farizə çəkiliş meydanında, iş vaxtı heç nə demək lazım deyil. Rejissor əvəzinə də, redaktor əvəzinə də, operator əvəzinə də çox məharətlə işləyir. Tam səmimiyyətlə deyə bilərəm ki, işinin peşəkarıdır.

Uzun yolları arxada qoyduqca, sürücümüz Şerzod əkə bizə Daşkənddən Səmərqəndə qədər olan 310 km məsafədə yerləşən şəhərlər və obalar haqqında məlumat verir. Adı Məvarənnəhrin dövründən də qədimə gedən Sırdərya çayı haqqında danışarkən buradakı balıq növlərini sayır. Sırdəryanın Çinaz bölgəsinin balığı həqiqətən də dadlı olur. Bu gün heyif ki, həmin balığın dadına yenidən baxmağa zamanımız yetmir. Özbəkistanın çox yerinə balıq buradan paylanır. Sırdərya həm də qovun-qarpızı ilə məşhurdur. Yol boyu təxminən 30-40 kilometr məsafədə kəndlilər öz becərdikləri yemişləri yol qırağına düzüblər. Buralar həm də topdansatış mərkəzidir. Özbəkistanın əksər rayon və şəhərlərinə bal kimi dadlı yemişlər buradan aparılır.

Bir az keçəndən sonra isə Cizak və Nəvai arasındakı yollarda səf-səf keçən dəvələr görünür. Dəvələrin keçdiyi yerlərdə isə yasəmən rəngində yulğunlar var. Bu yulğun kolları həm də lavandaya bənzəyir. Buranın dəvələri saksaul deyil, yulğunla qidalanırlar. Dəvənin südü və ətindən alınan məhsul da Tanrının bu müqəddəs yerlərə bir ruzi payıdır. Buradakı dəvələrin bizim dəvələrdən fərqli olaraq bir hürgücü var. Əgər yolumuzu dəyişib dəvələrin arxasınca getsək, o zaman əsrarəngiz Aydarkul (Heydərgöl) gölünə gedib çıxacağıq. Bu süni yaradılmış göl 3500 kvadrat kilometr ərazini əhatə edir. Özbəkistan prezidentinin sərəncamı ilə, bu rayonda yeni Antalya yaradılır. Aydarkul gölü bundan sonra Mərkəzi Asiyanın Antalyası olmağa iddialıdır. Sürücümüz deyir ki, Aydarkul gölünün təbiəti çox əsrarəngizdir, buralar istər suda, istərsə də quruda yaşayan heyvanlarla zəngindir. Aydarkul gölü ətrafında turistlərin əlindən yer tapmaq çətindir.

Biz Səmərqəndə çatana qədər yollarda kartof və soğan yarmarkaları, üzüm və alma bağları da görürük. Sırdərya sahilində becərilən üzümlər əsasən şərabçılığa yarayır. Ən yaxşı süfrə üzümləri isə Fərqanədə yetişdirilir. Baxmol rayonunun almasına isə söz ola bilməz. Yol boyu bağ-bostandan yığılan almalar göz oxşayır. Sürücüdən xahiş edirəm ki, maşını saxlasın ki, bir kilo alma alaq. Şerzod əkə uyğun bir yerdə avtomobilini saxlayır. Satıcı qızdan 1 kilo alma çəkməsini xahiş edir. Almanın pulunu da özü ödəyir. Özbək pul vahidi ilə 15 min sum. (təxminən 2 AZN). Çaş-baş qalıram. Şerzod əkə deyir ki, mən öz vətənimin məhsulunu sizə təqdim edirəm, nuş-canınız olsun.

Biz azərbaycanlılar da qonaqpərvərik. Lakin, çox vaxt özbəklərin qonaqpərvərliyinin bizdən daha çox olduğunu görmüşəm. Özbəkistan bazarlarında piştaxtadan götürüb yediyinə görə, kimsə sənə ağır söz deməz, əksinə sevinclə "Olin, olin" deyərlər. Özbəklər heç vaxt kiminsə evinə əliboş getmirlər. Əllərində ən azı iki dənə təndir çörəyi "non" götürərlər. Bir tikələrini belə tək yeməzlər. Yolda qalan yolçunu evinə aparar, susuza su verər, ac qalanın qarnını doyurarlar. Bəlkə elə buna görədir ki, "Daşkənd çörəkli şəhərdir" deyimi dillərdə əzbərdir.

***Daşkənddən Səmərqəndə qədər olan 300 kilometrdən artıq ərazidən keçdikcə bu torpağın necə zəngin və bərəkətli olduğunu yol kənarında əkilən pambığı, soğanı, kartofu, üzümü, qarpızı ilə kənd təsərrüfatı məhsullarının bir növ sərgisinə bənzəyən panoramdan bəlli olur. Bu bolluğa görə, Tanrıya şükür edirəm. Ucu-bucağı olmayan bu yurdu insan əməyi və zehni dirçəldir. Şerzod əkə onu da deyir ki, dehqanların öz becərdikləri məhsulları sərbəst şəkildə bazara çıxarmağında və daşımasında heç bir problem olmur. Özbək özü əkib-becərdiyi məhsulun yiyəsidir. Bu gün özbək insanı öz dövlətinə və zəhmətinə güvənir.***

Səmərqəndin yaxınlığında yeni bir mənzərə diqqətimizi cəlb edir. Bu isə "Yangi Samarkand", yəni "Yeni Səmərqənd" şəhərciyidir. Bu şəhərcik insana tarixi bir filmi xatırladır. Səmərqənddə olan bütün tarixi abidələrin bənzəri burada bir meydanda tikilib-qurulub. İndi Özbəkistan Prezidenti Şakvat Mirzyoyev özünün yüksək çinli xarici qonaqlarını, dövlət rəsmilərini bu şəhərcikdə qəbul edir. Sanki Əmir Teymurun XIV əsrdə yaratdığı ənənəni davam etdirir. O vaxtlar dünyanın sahibi olmaq istəyənlər Əmir Teymurun dövründə paytaxt olan Səmərqəndə gələrdilər. Bu gün də Səmərqənd Türk dünyasının darvazasıdır.

...Gün günortanın belinə çatmamış gəlib Səmərqəndə yetişirik. Daşkənddə yaşayan əziz dostumuz və həmkarımız , qocaman jurnalist Ruzibay Qoldaşevin Səmərqənddəki dostları bizi Uluqbəyin rəsədxanasının ətəyində qarşılayırlar. Belə gözəl dostları görəndə fikirləşirəm ki, bir ölkədə bu qədər dostu olan jurnalist özünü bəxtəvər saymasın, neyləsin?! Özbək dostlarımın bizə bu qədər yüksək səviyyədə diqqət göstərməsi ürəyimi sinəmdən atlandırır.

***Mədəni Miras İctimai Təşkilatının mətbuat katibi Bahadur əkə bizi 'Quri Əmir" Kompleksinə gətirir. Burada da çəkilişlərimizi çox böyük həvəslə başlayırıq, daha sonra həmişə olduğu kimi, 'Quri Əmir" Mavzoleyində uyuyan Əmir Teymur həzrətlərini ziyarət etmək məqamı yetişir. Bu dəfə isə böyük fatehi Movzoleyin direktoru Xuşnud Abdullayevlə birgə ziyarət edirik. Həm babam Əmir Teymurun məzarı önündə diz çöküb dua edirəm, həm də ağlayıram... Tanrıma şükür edirəm ki, mənə belə böyük bir məqam verib. 20 ildən artıqdır ki, hər dəfə ziyarətinə gəldikdə, məzarı önündə əyilmək nəsibim olur.***

Səmərqəndə bu dəfəki səfərimizdə Türk Mədəniyyəti və İrsi Fondu həm dəstəkçi, həm də istəkçi olub. Biz Səmərqənd haqqında birgə hazırladığımız filmdə də maraqlı məqamlara toxunacağıq.

Təbii ki, Səmərqənddə olub, Əmir Teymur dövründən qalan tarixi abidələri lentə almasaq, doğru olmaz. Demək olar ki, gün batana qədər Şahi Zinda və Bibixanım komplekslərində də çəkilişlərimizi sonlandırırıq. Burada isə bizi qocaman jurnalist Yakubcan Hazratkulov tək qoymur. İşimiz sona çatanda isə bizi dəmir yolu vağzalına qədər özü şəxsən ötürür.

"Şərq" qatarı ilə Daşkəndə gecə saat 23:45-də çatırıq. Vağzaldan otelə getmək üçün taksi çağırmaq lazım olanda, bizimlə qatarda gələn gənc oğlana müraciət edirəm. Bu gənc oğlan da, bizim üçün taksi sifariş verir... və deyir ki, siz taksiyə pulu ödəməzsiniz, mən artıq ödəmişəm yol pulunuzu...

Yenə heyrət... yenə təəccüb... və nəticə:

Dövlətlərimizin dostluğu əsil qardaşlığa çevrilib, bu qardaşlıq həm də qandaşlıqdır. Özbəkistan və Azərbaycan mədəniyyət və iqtisadiyyatın bütün sahələri üzrə birgə əməkdaşlığı genişləndirir. Özbəkistandakı böyük elçimiz, hörmətli Hüseyn Quliyev də iş adamı Emin Ağalarovun Daşkəndin 40-cı kilometirliyində olan "Çervak" istirahət zonasında tikintisinə başladığı "Sea Breze" kompleksi haqqında danışaraq deyir ki, biz yaxşı olan nəyimiz varsa, buraya gətiririk. Çünki qardaş qardaşdan heç nəyini əsirgəməz. Artıq bütün özbək gəncləri bir həqiqəti bilirlər ki, Özbəkistan və Azərbaycan adı olan yerdə sevgi, hörmət və məhəbbət ən yüksək həddədir.



... Sonuncu gün isə Teymurilər Dövlət Muzeyində Özbəkistanın tanınmış yazıçısı, Dövlət Mükafatı laureatı, Əmir Teymur haqqında 4 cildlik tarixi kitabın müəllifi, Azərbaycan ədəbiyyatının özbək dilinə ən mahir tərcüməçisi Məhəmməd Əlini çəkdik. O, hazırda "Əmir Teymur" Fondunun rəhbəridir. Məhəmməd Əlini ilk dəfə 2007-ci ildə çəkmişdim. Üstündən bu qədər il keçəndən sonra da, böyük Məhəmməd Əli müəllim məni unutmayıbmış, öz balası kimi bağrına basıb, "Xoş gəlibsən!" dedi. Sonra isə Əmir Teymur, Azərbaycan haqqında gözəl söhbətlər etdi...

Alimlərlə görüşmək işıqlanmaq deməkdir. Özbəkistanda olduğumuz 5 gün 4 gecə ərzində təzələndim, yeniləndim. Ona görə sevindim ki, özbəklər bu gün çox firavan yaşayırlar. Özbəklər bu gün BAYdırlar! (Bay - varlı, bəyzadə deməkdir) . Bu gün adi məktəb müəllimi 1000 dollardan yuxarı əmək haqqı alır, həkimlərin aylıq əmək haqqı onların hər birinin gedib xarici ölkələrdə gəzib-dolanmasına imkan verir. Bu gün Daşkəndin, Səmərqəndin küçələrində Özbəkistanın bir neçə şəhərində istehsal edilən "Chevrolet" markalı , çox gözəl avtomobillər şütüyür, qiymətləri də əlçatandır. Hər bir ailənin ən azı 1 avatomobili var. Dünyanın ən böyük şirkətləri Özbəkistana etibar edir, bura investisiya yatırırlar.

***Özbəkistanın gənclərinin gözlərində işıq var, gələcəyə inam var. Bu gün özbək vətəndaşı hər yeni gündə Özbəkistan Prezidnetinin ölkənin, xalqın rifahının yaxşılaşdırılması üçün verdiyi yeni sərəncamı eşidir, həyatın firavanlaşdığına şükür edir. Bu Özbəkistan 10 il bundan əvvəlki Özbəkistan deyil, bu, qurulan Yeni Özbəkistandır. Bu Özbəkistan o qədər varlıdır ki, hətta Azərbaycanın işğaldan azad olunmuş torpaqlarına sərmayə yatırır, Füzulidə Uluqbəy məktəbi tikir. Yeri gəlmişkən onu da deyim ki, Əmir Teymurun nəvəsi Uluqbəy Qarabağda doğulmuşdu. Elə ona görə də Qarabağda adı əbədiləşdi. Bir zamanlar Səmərqənddə akademiya yaradan Uluqbəyin elm-ürfan arzusu indi də Azərbaycanda öz adını daşıyan təhsil ocağında çiçəklənir.***

Oxu, oxut, abunə ol!